

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 176 (23.087)

18 sentyabr 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Çin Xalq Respublikasının Sinxua xəbər agentliyinin nazir statusunda baş redaktoru Hi Pinqin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Çinin Sinxua xəbər agentliyinin Azərbaycan Dövlət İnformasiya Agentliyi ilə yaxşı əməkdaşlıq etməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı Sinxua xəbər agentliyinin baş redaktoru Hi Pinqin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərindən sonra bu əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini ifadə edib. İki ölkə arasında ticarət əlaqələrinin inkişafı üçün çox yaxşı imkanların olduğunu qeyd edən dövlətimizin başçısı qarşılıqlı ixracın artırılması üçün əməli işlərin aparıldığını deyib. Prezident İlham Əliyev turizmin inkişafında xəbər agentliklərinin və mətbuatın böyük rolunu qeyd edib.

Ölkəmizdə keçirdiyi görüşlərdən danışan Hi Pinq Sinxua ilə Azərbaycan Dövlət İnformasiya Agentliyi arasında əməkdaşlıq haqqında imzalanan sənədlərin əhəmiyyətini qeyd edərək bu əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğulayıb. Qonaq Azərbaycanda çalışan Çin şirkətlərinin fəaliyyəti ilə yaxından tanış olduqlarını da məmnunluqla qeyd edib.

## "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında mədəniyyət sahəsində səmərəli fəaliyyətlərinə görə:

Əliyeva Günay Fərhad qızına

Əliyeva İlahə Yavər qızına

Əsgərov Məmməd Səməd oğluna – **"Əməkdar mədəniyyət işçisi"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 sentyabr 2018-ci il*

## Türkiyə universitetlərinin rektorları Naxçıvan Dövlət Universitetində olublar



Türkiyə Respublikasının Van Yüzüncü İl Universitetinin rektoru Peyami Battal və İqdır Universitetinin rektoru professor Mehmet Hakkı Alma Naxçıvan Dövlət Universitetində olublar. Qonaqlar əvvəlcə Bilik Günü münasibətilə keçirilən tədbirdə iştirak edib, tələbə adını qazanan gənclərə təbriklərini çatdırıblar.

Sonra Naxçıvan Dövlət Universitetində görüş keçirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali təhsil müəssisəsinin Türkiyə universitetləri ilə səmərəli əməkdaşlığından danışıb. Bu əlaqələrin əhəmiyyətini vurğulayan rektor eyni zamanda "Mövlana" mübadilə proqramı çərçivəsində görülən işləri, müəllim-tələbə mübadiləsini diqqətə çatdırıb.

Van Yüzüncü İl Universitetinin rektoru, professor Peyami Battal qeyd edib ki, 1982-ci ildə Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün 100 illik yubileyi münasibətilə yaradılan universitetin ölkəsinin ali təhsil sistemində xüsusi yeri və mövqeyi var. Rektor 17 fakültəsi, beş institutu, dörd məktəbi, bir konservatoriyası, 43 tədqiqat mərkəzi olan universitetin fəaliyyət istiqamətləri, fakültə və bölümləri, tədris prosesi, müəllim və tələbələri, idarəetmə strukturları barədə məlumat verib.

Türkiyənin İqdır Universitetinin rektoru professor Mehmet Hakkı Alma isə 7 fakültə üzrə tələbə qəbulu həyata keçirən İqdır Universiteti barədə danışıb. Bildirilib ki, bu il 400-ə yaxın xarici tələbənin də qəbul olduğu universitetdə 8000-dən çox tələbə təhsil alır. Vurğulanıb ki, universitetdə 7 doktorant, 24 magistr proqramı mövcuddur ki, bunlardan hər bir xarici tələbə də faydalana bilər.



Sonra Naxçıvan Dövlət Universiteti ilə Van Yüzüncü İl Universiteti arasında əməkdaşlıq müqaviləsi və "Mövlana" mübadilə proqramı çərçivəsində protokol imzalanıb. Sənədlərdə əməkdaşlığın qurulması, təcrübə mübadiləsinin aparılması, birgə konfrans və simpoziumların təşkili və digər məsələlər öz əksini tapıb.

***Naxçıvan Dövlət Universitetinin mətbuat bölməsi***

## Test imtahanları başa çatıb

24 avqust-12 sentyabr tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün elan edilmiş müsabiqənin test imtahanları keçirilib. Müsabiqəyə 165 vakant vəzifə çıxarılıb, 123 vakant vəzifənin tutulması üçün 527 sənəd təqdim edilib, test imtahanlarında 518 namizəd iştirak edib.

Müraciətlər müsabiqə elan edildiyi gündən etibarən 30 gün ərzində komissiyanın rəsmi internet səhifəsi vasitəsilə elektron formada qəbul edilib. Ən çox müsabiqə vəziyyəti İbtidai sinif müəllimliyi (166 müraciət), İngilis dili (84 müraciət), Riyaziyyat (43 müraciət), Coğrafiya (42 müraciət) və Tarix (41 müraciət) ixtisasları üzrə qeydiyyata alınıb.

Test imtahanında iştirakçılara ixtisas üzrə ümumi fənn proqramına uyğun 40, metodika və təlim strategiyaları üzrə 25, informasiya texnologiyaları üzrə 15 sual olmaqla, 80 sual təqdim edilib. Sualları cavablandırmaq üçün iştirakçılara 120 dəqiqə vaxt verilib.

Stimullaşdırıcı tədbirlər tətbiq olunan müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 60 faizini (48 bal), digər müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 80 faizini (64 bal) düzgün cavablandırmış 123 namizədin sənədləri müvafiq vəzifələrə təyin olunmaq üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə göndərilib.

Qeyd edək ki, muxtar respublikada ilk dəfə olaraq müəllimlərin işə qəbulu mərkəzləşdirilmiş qaydada, elektron proqram təminatı tətbiq olunmaqla test imtahanları vasitəsilə həyata keçirilib. Nəticələr komissiyanın rəsmi internet səhifəsində (*www.dqmk.nmr.az*) yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Hərbi rəhbərlərin növbəti təlim toplantısı keçirilib

*Ümumtəhsil məktəblərində Gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən hərbi rəhbərlərin peşəkarlıqlarının artırılması məqsədilə növbəti təlim toplantısı keçirilib.*



Toplantı zamanı hərbi rəhbərlərin sıra hazırlığı yoxlanılıb, kütləvi qırğın silahlarından mühafizə vasitələri haqqında məlumat verilib, fiziki hazırlıq üzrə məşğələlər keçirilib.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçilən dərslərdə bildirilib ki, gələcəyin əsgərləri olacaq şagirdlərdə hərb sənətinə marağı artırmaq, gəncləri hərbi xidmətə yüksək səviyyədə hazırlamaq üçün Naxçıvan Muxtar Respublikasında hərtərəfli şərait yaradılıb. Buna görə də Gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən hərbi rəhbərlər şagirdlərdə hərbi idman oyunlarına həvəs yaratmalı, onları ən azı gənc əsgər səviyyəsində yetişdirməlidirlər.

Nəzəri dərslərdən sonra hərbi-vətənpərvərlik mövzusunda film və videoçarxlar nümayiş etdirilib.

Təlim mərkəzində müxtəlif silahların təyinatı, taktiki-texniki xüsusiyyətləri ilə tanış olan hərbi rəhbərlər praktik atışlara cəlb edilərək avtomat silahdan və əl qumbaralarından atış çalışmalarını yerinə yetiriblər. Təlim mərkəzində tibbi hazırlıq üzrə dərslər də keçilib.

Hərbi rəhbərlərin 3 günlük təlim toplantısı Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən yekun tədbir ilə başa çatıb.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov və Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev təlim-toplantıların əhəmiyyətinə toxunaraq hərbi rəhbərlərin peşəkarlıqlarının artırılmasının bundan sonra da diqqət mərkəzində saxlanılacağını bildiriblər.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə bütün tam orta məktəblərin hərbi rəhbərlərinə yeni geyim formaları və ibtidai hərbi hazırlıq vasitələri təqdim edilib. Tam orta məktəblərimizdə şagirdlərin vətənpərvər ruhda yetişdirilməsinə xüsusi əhəmiyyət verilməsinin nəticəsidir ki, hər il yüzlərlə gənc Heydər Əliyev adına Hərbi Liseydə təhsil almaq üçün müraciət edir.

Sonda hərbi rəhbərləri maraqlandıran suallar cavablandırılıb.

**Nəriman NƏCƏFOV**

## Qaliblərə mükafatlar təqdim edilib

*Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbdə rus dili və ədəbiyyatı fənni üzrə VII-VIII sinif şagirdləri arasında keçirilən ümumrespublika olimpiadasının Naxçıvan Muxtar Respublikası üzrə zona turunun qaliblərinə mükafatlar təqdim olunub.*

Bu münasibətlə təşkil olunan tədbirdə Rusiya Federasiyasının ölkəmizdəki səfirliyinin nümayəndələri və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşları iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gələrək gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Ümumtəhsil məktəbləri və liseylərlə iş üzrə şöbə müdiri Abdulla Əsgərov çıxış edərək olimpiadanın təşkilinin əhəmiyyətindən bəhs edib.

Rusiya Federasiyasının ölkəmizdəki səfirliyinin müşaviri, Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin rəhbəri Valentin Denisov çıxışında qeyd edib ki, keçirilən olimpiadalar rus dili və ədəbiyyatının mənimsənilməsi və təbliği baxımından uğurlu nəticələr verməkdədir. O, bu istiqamətdə dövlətin göstərdiyi diqqət və qayğının təqdirəlayiq olduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, muxtar respublikada təhsilin inkişafının əsas göstəricilərindən biri də fənn olimpiadalarının təşkilidir.

Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin direktoru Samirə İsmayılova çıxışında muxtar respublikada rus dili təhsilinə göstərilən qayğıdan danışıb. Təhsil ocağının müəllimi Ceyran İsmayılova və şagird Adil Seyidov təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

Tədbirdə rus dili və ədəbiyyatı fənni üzrə VII-VIII sinif şagirdləri arasında keçirilən ümumrespublika olimpiadasının Naxçıvan Muxtar Respublikası üzrə zona turunun qaliblərinə diplom və mükafatlar təqdim olunub.

**Xəbərlər şöbəsi**

Müasirləşən kəndlərimiz

# İnsan amilinə qayğı olan yerdə...

***Ötən günlərin birində Ordubad rayonunun ucqar dağ yaşayış məntəqəsi Parağa kəndində olarkən neçə illər əvvəl burada gördüyüm mənzərələri xatırladım. Məlumat üçün qeyd edək ki, 1988-ci ildə baş verən hadisələr zamanı Qərbi Azərbaycan torpaqlarından – öz dədə-baba yurdlarından didərgin düşərək muxtar respublikamıza pənah gətirmiş soydaşlarımız Parağada məskunlaşıblar. Onlara dövlətimiz tərəfindən hərtərəfli köməklik göstərilib, 2003-2005-ci illərdə 18 ailə üçün fərdi mənzillər inşa edilib. Hər ailə üçün 620 kvadratmetr torpaq sahəsi ayrılıb. Artıq 30 ildir ki, soydaşlarımız burada yaşayır, qurub-yaradırlar. Onu da qeyd edək ki, kənddə məskunlaşan ailələr, necə deyərlər, əllərini əllərinin üstünə qoyub oturmayıblar, onların bəziləri hərtərəfli dövlət qayğısından istifadə edərək özlərinə yeni evlər tikiblər. Təbii ki, bu işdə parağalıların torpağa, zəhmətə bağlılıqları da mühüm rol oynayıb.***

2012-ci ildə kənd sakinləri dövlətimizin daha bir qayğısını görüblər. Parağada yeni məktəb binası, kənd və xidmət mərkəzləri, feldşer məntəqəsi istifadəyə verilib. Biləv kəndindən başlayaraq yolun qaydaya salınması, asfaltlanması bu yaşayış məntəqəsinə gediş-gəlişdəki çətinlikləri birdəfəlik aradan qaldırıb.

... Yolun sol tərəfində, yaşıllıqlar içərisində yerləşən kənd mərkəzi, tam orta məktəb binası göylərə boyverən ağacların görünməz etdiyi bir-iki kənd həyətini çıxmaqla, bu yurd yerinə gələnləri ilk qarşılayan obyektlərdir. Ucqar dağ kəndinə, onun torpağa, zəhmətə bağlı insanlarına göstərilən dövlət qayğısının canlı ifadəsi olan bu obyektlər Parağaya müasirlik gətirib. Belə ünvanlarda böyükhəcmli tikinti tədbirləri həyata keçirməyi təsəvvür etmək heç də çətin deyil. Ancaq bu çətinliklərə baxmayaraq, ilk olaraq yol yenilənib, müasir standartlar səviyyəsində genişləndirilib, qara örtük salınıb.





Yadıma illər əvvəl muxtar respublikanın yaşadığı vəziyyət düşür. Nəinki ucqar dağ kəndində, heç rayon mərkəzlərində belə, yeni tikintidən söhbət gedə bilməzdi. Sovet dönəmində tikilmiş binalar da sıradan çıxmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Necə deyərlər, hər kəs öz başının hayındaydı. Gündən-günə çoxalan qayğılar insanları məngənə kimi sıxırdı. Onların bu gündən sabaha ümidləri qalmamışdı. Ancaq çətin günün ömrü çox çəkmədi. Ölkəmizin, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızın üzərindən qara buludlar dağılmağa başladı. Yeni günlərin təməli də asan qoyulmadı – bu prosesdə insan amili ön plana çəkildi... Reallaşdırılan tədbirlər həyatımızın bütün sahələrinə nüfuz etdi. Paytaxt şəhərimizdən tutmuş ən ucqar dağ və sərhəd kəndlərinə qədər quruculuq işlərinə start verildi. Hər il bir neçə yaşayış məntəqəsi öz əvvəlki görkəmini tamamilə dəyişərək müasirliyə qovuşdu. Bu proses bu gün də davam etdirilir...

...Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Surxay Hüseynov uzun illərdir, bu vəzifədə çalışır. Onunla iki mərtəbədən ibarət kənd mərkəzində həmsöhbət oluruq. Bildirir ki, kənd mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, kənd mədəniyyət evi və 56 yerlik zal yerləşir.

Rabitə xidmətini yaxşılaşdırmaq məqsədilə mərkəzdə yerləşən rabitə evində poçt bölməsi yaradılıb, bank xidməti təşkil olunub. Burada 384 nömrəlik elektron avtomat telefon stansiyası quraşdırılıb, mobil operatorların xidməti təmin edilib, 2500 metr fiber-optik rabitə xətti çəkilib. Bu da kənddə abunəçilərə yüksək səviyyədə telefon, videotelefon, İP televiziya, genişzolaqlı internet və digər elektron xidmətləri göstərməyə imkan verib.

Kənd mərkəzində Parağa, Biləv və Behrud kəndlərini əhatə edən polis sahə məntəqəsinin fəaliyyəti üçün də lazımi şərait yaradılıb. Həmçinin burada Tivi, Parağa kəndlərini və Parağaçay qəsəbəsini əhatə edən baytarlıq məntəqəsi üçün də iş otağı ayrılıb.

Binanın birinci mərtəbəsində yerləşən feldşer məntəqəsi sakinlərə ilkin tibbi xidmət göstərilməsində mühüm rol oynayır. Burada ağxalatlılar üçün müasir iş şəraiti yaradılıb, onlar üçün 4 iş otağı ayrılıb.

Surxay müəllim deyir ki, kənd sakinlərinə göstərilən belə dövlət qayğısı insanlara qəribçiliyi unutdurub. 30 il ərzində burada dünyaya göz açan uşaqlar üçünsə bura daha doğmadır. Kənddə 112 təsərrüfatda 400 sakin yaşayır. Bu yaşayış məntəqəsində dağlıq ərazilər üçün xarakterik olan təsərrüfat işləri parağalıların məşğuliyyət sahələri olmaqla, həm də onların ruzi-bərəkət mənbəyidir. Burada meyvəçilik, arıçılıq, heyvandarlıq üçün münbit şərait var. İnsanların içməli və suvarma suyu sarıdan heç bir problemləri yoxdur. Kəndin müxtəlif ünvanlarında 10-dək bulaq ilboyu çağlayır...

... Yolumuzu kənd orta məktəbinə salırıq. Kənd mərkəzi ilə yanaşı olan məktəbdə qələbəlikdir. Üç ay şagird gülüşlərindən uzaq düşmüş siniflər elə bil cana gəlib. Burada yadıma illər öncə kəndlərimizdə gördüyüm məktəb binalarının görkəmi düşür. O məktəb binalarını bugünkü şagirdlərə təsvir etsən, əsla inanmazlar. Ancaq fakt faktlığında qalır – çiy kərpicdən tikilmiş yöndəmsiz birmərtəbəli tikililərdə dərs keçməyin çətinliyini görmüşük...

Məktəbin direktor əvəzi Zöhrab Qasımovla, müəllimlərlə görüşürük, onlarla həmsöhbət oluruq. Burada yaşayan insanların məşğuliyyəti, kənddə yaşadılan adət-ənənələr, parağalıların asudə vaxtlarının təşkili barədə onlarla söhbətdən əvvəl, adətim üzrə "Parağa" sözünün nə ilə bağlı olduğunu, hansı məna daşıdığını öyrənmək istəyirəm.

Zöhrab müəllim deyir ki, 1590-cı ilə aid mənbədə qeydə alınmış Parağa 1925-1930-cu illərdə 15 kəndi əhatə edən rayon mərkəzi olub. Bəzi tədqiqatçıların fikrincə, Parağa türk dillərində "para", "pul" anlamındadır. Digər fikirlərə görə isə toponim "para" və "gah" komponentlərindən ibarət olub, "kənd yeri" və ya "o biri sahildəki (tərəfdəki) yer" mənasında açıqlanır. Tədqiqatçı alim, mərhum Adil Bağırova görə, bu adın ilkin variantı "para" və "ağa" komponentlərindən ibarət olub. Burada "para" "torpaq hissəsi", "kənd" mənası bildirir, "ağa" isə tituldur. Deməli, saitlə bitən "para" sözü saitlə başlayan "ağa" sözü ilə birləşdikdə a səsinin birinin düşməsi nəticəsində "Para + ağa" sözləri "Parağa" şəklinə düşüb. Bu adın mənası "ağaya məxsus torpaq hissəsi", "ağaya məxsus kənd" deməkdir (Bir qədər sonra kənd meydanından yaşayış məntəqəsini seyr edərkən bunun, doğrudan da, həqiqət olduğuna inandım).

Məktəbi gəzirik. Təhsil ocağının binası müasir tədris şəraitinə və yüksək maddi-texniki bazaya malikdir. Burada dərslərin müasir təlim üsulları ilə tədrisi üçün lazım olan bütün avadanlıqlar quraşdırılıb. 110 şagird yerlik məktəbdə 2-si elektron lövhəli olmaqla, 11 sinif otağı, kompüter sinfi, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kitabxana, müasir idman zalı, internetə qoşulmuş 9 kompüter müəllim və şagird kollektivinin istifadəsinə verilib. Məktəbdəki müasir laboratoriyalar, fənn kabinələri, elektron lövhəli siniflər dərslərin yüksək səviyyədə tədrisinə imkan yaradır. Hərbi kabinədə tədris olunan Gənclərin çağırışaqədərki hazırlığı dərslərində şagirdlərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi diqqət mərkəzində saxlanılır. Məktəbin binasında yeni idman zalı yaradılıb, həyətdə açıq idman qurğuları qoyulub. Bu imkanlardan səmərəli istifadə olunmasına ciddi önəm verilir.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Surxay Hüseynov deyir ki, burada fəaliyyət göstərən dövlət qurumları əvvəllər şəraiti olmayan binada yerləşirdi. Tikilən yeni kənd mərkəzində dövlət qurumlarının fəaliyyəti üçün hər cür şərait yaradılıb.

Parağa kəndində aparılan kompleks quruculuq işləri çərçivəsində yeni xidmət mərkəzi də tikilib. Xidmət mərkəzində bərbərxana, ət satışı yeri və ərzaq mağazası fəaliyyət göstərir.

Yaşayış məntəqəsində bir sıra abadlıq işləri də aparılıb, qaz, içməli su və elektrik xətləri çəkilib, transformator yarımstansiyası quraşdırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Parağanın muxtar respublikanın abad kəndləri sırasına daxil olması münasibətilə tədbir iştirakçılarını, kənd sakinlərini təbrik edib, kənd mərkəzinin açılışında deyib: ***"Parağa kəndində aparılan quruculuq işləri ölkəmizin iqtisadi gücünün göstəricisi olmaqla yanaşı, həm də dövlətimizin insan amilinə, onların yüksək həyat standartları səviyyəsində yaşamasına göstərdiyi qayğının bariz nümunəsidir. Bu gün ölkəmizdə ucqar dağ və sərhəd kəndlərinin inkişafına xüsusi diqqət göstərilir, sakinlər dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunurlar. Parağa kəndində həyata keçirilən kompleks quruculuq işləri də, ilk növbədə, əhalinin rahatlığına, kəndin sosial-iqtisadi inkişafına xidmət edir"***.

Kəndin zəhmətkeş insanları ilə də həmsöhbət oldum. Onlar muxtar respublikanın bütün bölgələrini əhatə edən tikinti-quruculuq və abadlıq işlərini ölkəmizdə ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsi kimi dəyərləndirdilər. Kənd sakini Rövşən Babayev dedi ki, Parağaya köçəndə burada necə yaşayacağımızı düşünürdük. İlk günlər çətinliklərimiz oldu. Dözdük və bəhrəsini gördük. Gördük ki, arxamızda güclü iqtisadiyyatı olan dövlətimiz dayanıb. O dövlət ki insan amilinə böyük dəyər verir, öz vətəndaşının qeydinə qalır. Göstərilən qayğı bu kəndi bizə doğmalaşdırdı. Əkib-becəririk, heyvandarlıqla məşğul oluruq, arı saxlayırıq. Elə bir ailə yoxdur ki, hansısa təsərrüfat sahəsində çalışmasın.

Öyrəndik ki, kənddə 200-dən çox arı ailəsi, 2000-dən artıq xırdabuynuzlu, 250 baş iribuynuzlu heyvan saxlanılır. Bol məhsullu meyvə bağları göz oxşayır. Bu isə hər bir parağalı ailəsini ekoloji saf qida məhsulları ilə təmin edir.

Kənd sakini Kamil Mikayılov Parağada məskunlaşmış soydaşlarımıza yaradılmış şəraitdən razılığını bildirərək onlar adından dövlətimizə minnətdarlığını ifadə etdi:

– Belə yaşıllığa qərq olmuş kənd uzunömürlülüyün vacib şərtidir. Burada istehsal etdiyimiz məhsullar – bal, pendir, ət, müxtəlif meyvələr özümüzü tamamilə ödəyir, bazara da çıxarırıq. Parağanın dağlarında müalicəvi otlar da çoxdur. Onları da yığıb istifadə edirik. Kənd adamlarını Parağaya bağlayan dövlət qayğısı davamlıdır. Həmyerlilərim Naxçıvan şəhərində keçirilən müxtəlif festivallarda öz məhsulları ilə iştirak edir, ailə büdcələrinə xeyli gəlir gətirirlər. İllər də bir-birindən uğurlu gəlir. Bu il də məhsulumuz boldur. Bizə belə şəraiti yaradanlar sağ olsunlar.

✍ Muxtar MƏMMƏDOV

Dövlət proqramları necə icra olunur

# Əkinəyararsız torpaq sahələrindən bu gün bol üzüm məhsulu toplanılır

***Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" və 2018-ci il 5 may tarixdə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı" ölkəmizdə üzümçülüklə bağlı aqrar siyasətin və strategiyanın inkişafına xidmət edəcək mühüm dövlət sənədləridir.***

Azərbaycanda üzüm becərilən bölgələrdən biri də Naxçıvan Muxtar Respublikasıdır. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda bölgədə üzüm istehsalının 20 min tona çatdırılması bir vəzifə olaraq qarşıya qoyulub. Hazırda həmin dövlət proqramları ilə bağlı mühüm tədbirlər həyata keçirilir. Muxtar respublika ərazisində müasir dövrdə əkinəyararlı münbit torpaqlardan məqsədyönlü istifadə olunması, yeni yaradılan müvafiq tikintilərin, istehsal müəssisələrinin istifadə olunmayan sahələrində, şorakət ərazilərdə salınması mühüm problemlərdən biridir. Bölgədə əkinəyararsız sahələrin əkin dövriyyəsinə daxil edilməsi, istifadə olunmayan boş qalmış sahələrdə, təpəliklərdə yaşıllıq zolaqlarının salınması, ağacların əkilməsi və nəhayət, üzüm plantasiyalarının yaradılması tədqirəlayiqdir. Xüsusilə Nehrəm kəndi inzibati ərazisinin şərq hissəsində indiyə qədər istifadəsiz qalan təpəliklərin şumlanaraq əkinəyararlı hala gətirilməsi nəticəsində 150 hektardan çox müasirtipli üzüm plantasiyalarının salınması müvafiq dövlət proqramlarının icrasında mühüm tədbirlərdən biridir. Yeni salınan üzüm plantasiyasında daha çox xaricdən gətirilən və filloksera zərərvericisinə dözümlü olan Amerika üzüm növünə calaq edilmiş süfrə istiqamətli üzüm sortları əkilib. Üzümlükdə tənəklərin damcı üsulu ilə suvarılması şəbəkəsi yaradılıb və avtomatlaşdırılıb. Tənəklərə ştamplı birtərəfli və ikitərəfli kordon forması verilib. Tənəklərin qış fəsli şaxtalardan qorunması üçün üzüm bağlarında lazım olan anda işə düşə bilən tüstüverən aparatlar quraşdırılıb. Ərazidə təzə üzüm məhsulunun və ondan istehsal olunan qurudulmuş məhsulun uzun müddət saxlanılması üçün saxlama kameraları da mövcuddur. Üzüm bağlarında ancaq kişmişi və süfrə sortları əkilib. Hazırda üzüm plantasiyasının 70 faizdən çoxu məhsul verir. Tənəklərdə bol məhsul vardır. Üzüm bağında daha çox əkilən Amerika sortu Red Qlob və Viktoriya sortlarıdır. Həmin sortların salxımları çox iridir, çəkisi 750-1500 qram olur. Giləələri çəhrayı rənglidir, şəkərliliyi 14-15 faizdir. Məhsuldar sortdur. Süfrə istiqamətli Viktoriya sortu isə Rumıniya sortu olub hibrid mənşəlidir, kardinal və qaraburnu sortlarının hibridləşdirilməsindən alınıb. Salxımları çox iridir, kütləsi 100-1500 qramdır. Giləələri ağımtılsarı rənglidir, şəkərliliyi 15-16 faizdir. Hər iki sort çox gözəl əmtəə görünüşünə malikdir və Naxçıvan şəraitində sentyabr ayının əvvəllərində tam yetişir.



Qeyd edək ki, yeni salınan üzüm plantasiyasından toplanılan məhsul muxtar respublika əhalisinin süfrə üzümü və ondan alınan digər məhsullarla dolğun təmin olunmasında mühüm rol oynayır. Belə məhsuldarlıq muxtar respublikadan üzüm ixracına da şərait yaradacaqdır.

Ancaq arzu edərdik ki, yeni üzümlüklərin salınmasında və genişləndirilməsində bölgədə mövcud olan, müxtəlif vaxtlarda yetişən 150-dən artıq yerli üzüm sortundan daha geniş istifadə olunsun. Çünki tarixən Naxçıvan əhalisi üzümlə qidalanmada fizioloji cəhətdən daha çox yerli məhsulların qəbul edilməsinə uyğunlaşıb.

Varis QULİYEV
*aqrar elmlər üzrə elmlər doktoru*

*18 sentyabr Milli Musiqi Günüdür*

# Azərbaycan musiqi mədəniyyəti milli sərvətimizdir

***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1995-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəyovun anadan olduğu günün – 18 sentyabrın “Milli Musiqi Günü” kimi qeyd olunması haqqında Fərman imzalamışdır. Həmin tarixdən etibarən hər il sentyabrın 18-i ölkəmizdə “Milli Musiqi Günü” kimi qeyd olunur.***



Azərbaycan musiqi mədəniyyəti zəngin və çoxəsrlik tarixə malikdir. Gəmiqaya və Qobustan qayaüstü rəsmləri, eləcə də “Kitabi-Dədə Qorqud” dastanı xalqımızın qədim musiqi mədəniyyəti haqqında zəngin məlumat verir. Hələ XIII əsrdən Azərbaycan musiqisinin nəzəri məsələləri araşdırılmış, musiqimizin səs sistemi, ladları, musiqi alətləri haqqında dəyərli əsərlər yazılmışdır. Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“Bizim gözəl incəsənətimiz, mədəniyyətimiz, bənzərsiz xalq musiqimiz və ondan bəhrələnən, onun əsasında yaranan müasir, peşəkar musiqimiz var. Zənnimcə, peşəkar musiqimiz həm görkəmli bəstəkarlarımızın, həm də mahir ifaçılarımızın ən böyük nailiyyətidir”.***

Xalqımızın yaradıcılıq istedadını özündə əks etdirən milli musiqi nümunələrimiz, muğam və xalq mahnılarımız, aşıq musiqimiz min illərin sınağından keçərək bu günə gəlmişdir. Bu gün zəngin musiqimiz dünyada sevilə-sevilə dinlənilir, könülləri fəth edir. Həmçinin ölkəmizdə yüksək peşəkarlığı, orijinal musiqi üslubu ilə seçilən bəstəkarlıq məktəbi də formalaşmışdır. Azərbaycan bəstəkarlıq məktəbinin formalaşmasında Üzeyir Hacıbəyovun əvəzsiz xidmətləri olmuşdur. Dahi bəstəkarın yaradıcılığı Azərbaycan musiqisinə dünya şöhrəti qazandırmışdır. Onun zəngin milli və ümumbəşəri duyğuları əks etdirən əsərləri dünyanın müxtəlif ölkələrində ifa olunur, dinlənilir və sevilir. Üzeyir Hacıbəyov təkcə Azərbaycan professional musiqisinin banisi kimi deyil, həm də böyük alim, maarifçi, dramaturq, publisist, pedaqoq, ictimai xadim kimi Azərbaycan tarixində görkəmli yer tutur.

Qədim tarixə malik olan Azərbaycan musiqi sənəti ötən əsrin 70-ci illərində yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Həmin dövrdə ulu öndər milli musiqimizin böyük simaları olan Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev, Arif Məlikov kimi dünya səviyyəli bəstəkarlarımızın yaradıcılığını yüksək qiymətləndirmiş, Azərbaycan musiqi mədəniyyətinin inkişafına böyük qayğı göstərmişdir. Korifey sənətkarlarımız Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov bu dövrdə “Sosialist Əməyi Qəhrəmanı” adına layiq görülmüşlər. Ümummilli liderimiz ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra da Azərbaycan musiqisinin inkişafına böyük qayğı göstərmiş, ixtisaslı musiqiçi kadrların hazırlanmasına xüsusi diqqət yetirmişdir.

Bu gün ölkəmizdə musiqi sənətinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Hər il ölkəmizdə yeni musiqi məktəbləri inşa olunur, konsert salonları təmir edilir və yenidən qurulur, maddi-texniki bazaları gücləndirilir, milli musiqiçi kadrların yetişdirilməsi istiqamətində uğurlu layihələr həyata keçirilir. Son illər beynəlxalq səviyyəli musiqi festivallarının keçirilməsi ölkəmizdə musiqi mədəniyyətinin inkişafından xəbər verir. “Qarabağ xanəndələri” albomunun, “Üzeyir Hacıbəyov Ensiklopediyası”nın və “Muğam Ensiklopediyası”nın nəşr olunması Azərbaycan muğamının, aşıq sənətinin, tar ifaçılığı sənətinin, kamançanın YUNESKO tərəfindən “Bəşəriyyətin qeyri-maddi mədəni irsi reprezentativ siyahısı”na daxil edilməsi isə qədim musiqi mədəniyyətimizə verilən qiymətin daha bir ifadəsidir.





Naxçıvan Muxtar Respublikasında da milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Muxtar respublika mədəniyyəti bu gün özünün yeni inkişaf dövrünü yaşayır. Bu yüksəlişin fonunda milli musiqi sənətinin də inkişafı təmin olunmuşdur. Son illər Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni musiqi məktəbləri tikilib istifadəyə verilmiş, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazası gücləndirilmiş, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının, Aşıqlar Birliyinin fəaliyyəti təmin edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında” 2015-ci il 29 mart tarixli Sərəncamına əsasən musiqi ocağının yubileyi muxtar respublikamızda geniş qeyd olunmuş, binası əsaslı şəkildə yenidən qurulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illik yubileyinin keçirilməsi haqqında” 2016-cı il 21 oktyabr tarixli Sərəncamına əsasən bu uşaq musiqi məktəbinin yubileyi də yüksək səviyyədə qeyd edilmişdir.





Musiqinin inkişafına göstərilən qayğı Naxçıvan bəstəkarlarının yaradıcılıq imkanlarını genişləndirmişdir. Bu gün muxtar respublikada milli musiqimizin təbliği istiqamətində də mühüm tədbirlər görülür. Ötən dövrdə Naxçıvan Dövlət Filarmoniyasının xarici ölkələrə qastrol səfərləri təşkil edilmiş, musiqi kollektivləri Rusiya Federasiyasında, Türkmənistanda, Türkiyədə və Polşada uğurla çıxış etmiş, musiqi kollektivlərinin və “Şərur” Xalq Yallı Ansamblının çıxışları maraqla qarşılanmışdır.

Musiqimizin inkişafı istiqamətində görülən tədbirlər uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini də əhatə etmişdir. Son illər 20-dən çox musiqi məktəbi üçün bina inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilmişdir. Bu gün muxtar respublikada 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi fəaliyyət göstərir. Bu sahədə həyata keçirilən tədbirlər davamlı xarakter almışdır. Son illər Naxçıvan şəhərinin Qaraçuq, Culfa rayonunun Bənəniyar, Şərur rayonunun Ələkli kəndlərində uşaq musiqi məktəbləri üçün yeni binalar istifadəyə verilmişdir. Naxçıvan şəhərindəki 2 nömrəli Uşaq Musiqi Məktəbi, Sədərək Rayon Uşaq Musiqi Məktəbi üçün də yeni bina inşa olunmuş, musiqi təhsilinin nümunəvi təşkilinə hərtərəfli şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Azərbaycan musiqisi xalqımızın zəngin mədəniyyətini və milli dəyərlərini bütün dünyaya nümayiş etdirir. Mərasim-məişət nəğmələrimiz, muğam və aşıq yaradıcılığımız, Naxçıvandakı Gəmiqaya abidələrində əks olunan yallı elementləri bir tərəfdən bəşəriyyətin ilkin melodiya və ritm sənəti haqqında məlumat verirsə, digər tərəfdən musiqi mədəniyyətimizin nə qədər qədim və zəngin olduğunu göstərir”.***

Uşaqların istedadının üzə çıxarılmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyasının da mühüm rolu vardır. Filarmoniyada xalq çalğı alətləri, kamera orkestri, mahnı və rəqs ansamblı, xor kollektivi fəaliyyət göstərir. 1998-ci ildə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin nəzdində konservatoriyanın açılması isə ali təhsilli musiqiçi kadrların yetişdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamından sonra Naxçıvan Aşıqlar Birliyi yaradılmış, Azərbaycan xalqının tarixini özündə yaşadan xalq musiqisi, yallılar, xalq rəqsləri, toy adətləri təbliğ olunmağa başlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamı da musiqi tədrisi sahəsində yeni imkanlar açmışdır. Sərəncama əsasən musiqi müəllimliyi, xalq çalğı alətləri ifaçılığı, fortepiano, musiqişünaslıq, dirijorluq və başqa ixtisasların Mədəniyyət Nazirliyinə hamiliyə verilməsi tədrisin müasir səviyyədə qurulması imkanı yaratmışdır. Bu məqsədlə gənc musiqiçilərin peşəkar bəstəkar və musiqiçilərlə görüşləri, ustad dərsləri təşkil olunur, istedadlı tələbələrin solo konsertləri keçirilir.

Muxtar respublikada son illər xalq musiqisinin, yallılarımızın, muğamlarımızın nota köçürülməsi sahəsində görülən işlər də bu qayğının ifadəsidir. “Naxçıvan-Şərur el yallıları”, “Naxçıvan bəstəkarlarının uşaq mahnıları”, “Azərbaycan muğamları” və başqa dəyərli kitablar bunun nəticəsidir.

Muxtar respublikanın musiqi kollektivlərinin əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilmiş, səmərəli fəaliyyətlərinə görə musiqiçilərimiz Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, Prezident təqaüdü və mükafatlarına layiq görülmüşlər.

*Musiqi insanları bir-birinə yaxınlaşdırmaq, doğmalaşdırmaq gücünə malikdir. Bu gün Azərbaycan musiqisi dünyanın qəbul etdiyi sənət nümunəsidir. Zaman dəyişir, zövqlər dəyişir, əsl musiqi isə əbədi yaşayır.*

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*AMEA Naxçıvan Bölməsində “Naxçıvanda arxeoloji tədqiqatlar” mövzusunda tədbir keçirilib.*

# Ekspedisiyaların yekunlarına həsr olunan tədbir



Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev on ildən artıqdır ki, Naxçıvan Muxtar Respublikasının ərazisində aparılan respublika və beynəlxalq səviyyəli arxeoloji araşdırmalardan, çoxsaylı tədqiqatlardan bəhs edib. O, bu il bölmənin arxeoloji ekspedisiyasının Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin arxeoloqları ilə birgə əvvəlki illərdəki tədqiqatlarını davam etdirdiyini, bölgənin I Kültəpə, Duzdağ və Naxçıvantəpə yaşayış yerlərində qazıntılar apardığını diqqətə çatdırıb.

Sonra bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim dövr arxeologiyası şöbəsinin müdiri, Naxçıvan arxeoloji ekspedisiyasının rəhbəri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev Naxçıvan ərazisində aparılan arxeoloji ekspedisiyalarla bağlı məlumat verib. O qeyd edib ki, qazıntılar zamanı Kültəpənin Neolit dövrünə aid abidə olduğu tarixi arxeoloji əsaslarla dəqiqləşdirilib. O, I Kültəpə yaşayış yeri ətrafında əvvəlki illərdə aparılan arxeoloji araşdırmalarda aşkar olunan Eneolit dövrü yaşayış yerinin tədqiqini davam etdirildiyini bildirib.

Daha sonra Azərbaycan və Fransa Beynəlxalq Arxeoloji ekspedisiya layihəsinin beynəlxalq ekspedisiya rəhbəri, Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin əməkdaşı Catherine Marro çıxış edərək bu ilin oktyabr ayında Bakı şəhərində açılacaq sərgidə I Kültəpə, Ovçular təpəsi və Duzdağda araşdırmalar zamanı əldə olunan materialların da nümayiş etdiriləcəyi barədə məlumat verib.

Catherine Marro arxeoloji qazıntılara dəstək və hərtərəfli şərait yaradan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonda sözügedən qədim yaşayış yerlərində tədqiqat zamanı aşkar olunan maddi-mədəniyyət nümunələri videogörüntü vasitəsilə nümayiş etdirilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Naxçıvanda *“İslam filmləri həftəsi”* keçiriləcək

*Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə əlaqədar müxtəlif səpkili tədbirlər keçirilir.*

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, silsilə tədbirlərin davamı olaraq sentyabrın 24-də Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində “İslam filmləri həftəsi”nə start veriləcək. Tədbir çərçivəsində Azərbaycan, İran, Türkiyə, Özbəkistan və digər ölkələrin istehsalı olan müxtəlif mövzuda və janrda ekran əsərləri nümayiş etdiriləcək. Filmlər həftə ərzində hər gün saat 18[00]-da başlayacaq.

Məlumatda o da qeyd olunur ki, tədbirin ilk günü Qarabağ müharibəsi zamanı azərbaycanlı qadının təkbaşına işğalçılara qarşı cəsarətlə dayanaraq kəndi işğaldan qorumasından bəhs edən Azərbaycan filmi “Nabat” nümayiş etdiriləcək.

Sentyabrın 25-də İran İslam Respublikasının istehsalı olan “Mən məktəbə getmək istəyirəm” filmi tamaşaçılara təqdim ediləcək. Filmsevərlər “İslam filmləri həftəsi”nin üçüncü günü Özbəkistan və Tacikistan kinematoqrafçılarının birgə istehsal etdiyi, məşhur alim və filosof Əbu Əli ibn Sinanın uşaqlıq və gənclik illərindən bəhs edən “Dahinin gəncliyi” filminə baxa biləcəklər. Sentyabrın 27-də tamaşaçılar daha bir İran filmi – “Yağış” ekran əsəri ilə tanış olacaqlar. Ertəsi gün türk rejissoru Çağan İrmakın insan və onun mənəvi dünyasını əks etdirdiyi “Ulak” filmi göstəriləcək. Sentyabrın 29-da nümayiş olunacaq “Niyyət” filmi 2009-cu ildə Azərbaycanda istehsal edilib və dinə, adət-ənənələrə, insanlara ehtiram mövzusuna həsr olunub.

“İslam filmləri həftəsi”nin son günü isə türk rejissoru Kürşat Kızbaşın Cəlaləddin Ruminin həyatı və fəlsəfəsi ilə bağlı hazırladığı “Eşqin rəqsi” sənədli filmi tamaşaçılara təqdim ediləcək.

Qeyd edək ki, “İslam filmləri həftəsi” tədbiri sentyabrın 30-da yekunlaşacaq.

**Nail ƏSGƏROV**

*Xalq təqvimi*

# Elqovan dövrü

## *Naxçıvanda yayın son ayı (20 avqust-20 sentyabr) el arasında belə adlandırılır*

***Ta qədimdən xalqımız uzun illərin müşahidə və təcrübəsinə əsaslanaraq xalq təqvimi tərtib edib. Torpağın şumlanması, toxumun səpilməsi, tingin əkilməsi, peyvənd edilməsi, suvarma və məhsulun yığılması üçün konkret zaman təyin olunub. Etnoqrafik yaddaşımızda qalan həmin dövrlərdən biri də elqovan dövrüdür. Naxçıvanda yayın son ayı (20 avqust-20 sentyabr) "elqovan" adlanır. Aran zonasında bu müddətə "bürküsınan günlər" də deyirlər.***

Deyilənə görə, bu dövrdə dağların yaxasından soyuq şeh titrəyib keçir, yaylaqların soyuqları başlayır, köç xəbəri el-obaya yayılır. Bu müddətdə tez-tez çən düşür, dağlardan duman, çiskin əskik olmur. "Elqovan gəlib, köçmək vaxtıdır" xalq deyimi də bununla bağlıdır. Naxçıvan bölgəsində payızın əvvəllərində əsən soyuq küləyin "oğlaqqıran" adlandırıldığı da etnoqrafik mənbələrdə qeyd olunur. Etnoqraf Elbalı Mehrəliyev "Xalq coğrafi təxminlərinin izahlı lüğəti"ndə "elqovan"ın mövsümi külək olub, yazın axırında əsən isti, payızın əvvəlində əsən soyuq külək olduğunu, yazda elatın yaylağa, payızda qışlağa köçmə vaxtını bildirdiyini yazır. "Eltökən"in isə payızın əvvəlində güclü küləklə yağan yağış olduğunu, yaylaqda olan camaatın dağdan arana köçməsinə xəbərdarlıq edildiyini bildirir. Topladığımız çöl tədqiqatlarına görə, sentyabr ayının ilk günlərinə "oğlaqqıran" dövrü də deyirlər. Buna səbəb isə həmin vaxt oğlaqların daha çox kəsilməsidir. Yaşlı insanlar söyləyirlər ki, quyruq doğduqdan sonra erkək oğlaqlar seçilir və kəsilir. Bu dövrdə yağlı quzu ətindən çox çəpiş ətinə üstünlük verilir. Naxçıvanda kənddə yaşayan əhalinin əksəriyyəti bir neçə çəpişi qurban deyir, həmin çəpişlər bu dövrdə kəsilir, damazlıqlar isə sürüyə qatılır. Ta qədimdən Əshabi-Kəhf ziyarətgahına da daha çox oğlaqqıran dövründə kütləvi axın başlayar, ziyarətçilər də, əsasən, qurbanlıq çəpiş apararlar.

"Quyruq doğduqdan" sonra kənd təsərrüfatında görüləcək işlərdən biri payız şumunun başlanmasıdır. Öküz və digər heyvanlarla şumun qaldırılması ağır zəhmət bahasına başa gəlirdi. Ona görə də əkin ilə bağlı çoxlu atalar sözləri yaranmışdır. Məsələn: "Əmək çəkənin əməyi itik, dizi sıyrıq qalmaz", "Zəhmətin barı torpağın varıdır", "Rəncbər əli kol-kosluğu da cənnətə döndərər", "Vaxtında əkilən vaxtında bitər" və sair.

Qeyd edək ki, bu dövrdə aparılan şum daha yaxşı effekt verir. Çünki torpaq günəş altında yanır, alaq toxumları, zərərvericilər məhv olur. Ona görə də atalar deyir ki, bazardan qalsan, bir gün qalarsan, əkindən qalsan, bir il. Təcrübələr göstərir ki, şum nə qədər dərin olsa, suyu yaxşı saxlayar, bitkinin kökləri yaxşı inkişaf edər, bol məhsul alınar. Təcrübəli əkinçilərimiz çox zaman torpağı pərşum (1 şuma perpendikulyar) edər, bəzən isə 3-4 dəfə şumlayardılar. Bir rəvayətə görə, təcrübəli bir əkinçinin qoca vaxtında gözləri tutulur. O, oğlunu yanına çağırıb deyir: "Oğul, get əkin işlərinə başla, amma toxumunu hələ səpmə". Oğlu cütü qoşub sahəni şumlayır. Aradan bir müddət keçdikdən sonra qoca oğluna sahəni pərşum etməyi tapşırır. Üçüncü şumda oğlan toxumu səpir. Bir müddətdən sonra ata oğluna dördüncü şumu edib, toxumu səpməyi tapşırır. Biçin vaxtı ata oğluna onu əkinin yanına aparmasını xahiş edir. Əlini taxıla sürtüb, – oğul, şumun birini kəsmisən, – deyir. Ona görə də atalar "Əkinçini əkinindən tanıyarlar" demişlər. Ata oğluna tövsiyə edir ki, kotanın macı (dəstəyi) ilan da olsa, əlindən buraxma. Yayda bir gün boş gəzərsən, qışda on gün ac qalarsan. Taxılın səpilməsi, əsasən, payız girəndə başlayır. Atalar deyiblər: "Bir gün tez əkən, bir həftə tez biçər", "Vaxtında görülməyən iş görülməmiş kimidir".

Əkinçi babalarımız onu da deyiblər ki, taxıl iki yay görməlidir. Havalar isti keçərsə, tez əkilən taxıl payızda "boruya gedər" (sünbül boru kimi formalaşır), yəni məhsul ərsəyə gəlməz. Belə hal baş verərsə, əkini otararlar ki, yenidən beçələsin (yeni sünbül qanadları çıxsın). Vaxtilə indiki toxumsəpən aqreqatlar olmadığı üçün şumlanmış sahəyə toxum əllə səpilər, üstdən tapan (mala) vurulardı. Bu zaman toxumlar müxtəlif dərinliyə düşər, bir hissə isə açıqda qalardı. Toxum itkiyə getməsin deyə, hər küzü (moranı) səpdikcə suvarardılar. "Taxılı öküzün dırnağına sula" məsəli də buradan qalmışdır.

Maldarlıqda da bəzi işlər bu dövrdə görülür. İribuynuzlu heyvanlar sentyabrın əvvəllərindən başlayaraq arana endirilir. Naxçıvanda ənənəvi olaraq "qoçqarışan" oktyabrın axırı hesab edilsə də, sentyabrın 15-də (bəziləri daha erkən) arıq, yaşlı qoyunlar sürüdən çıxdaş edilir.

Sentyabr ayının əvvəllərində ailələrdə qışa tədarük üçün zoğal, şaftalı kompotu, mürəbbəsi bişirilir. Turşuların qoyulmasına başlanır. Qış azuqəsi olan əriştə, yarma hazırlanır. Sentyabrda keçiləri sağmağı dayandırır, eyməyə yığılan "qara qatığı" çalxayır, şorunu küpələrə yığıb, ağzını sələklə bağlayır, torpağa basdırırlar.

Tarixən Azərbaycanda müxtəlif təqvimlərdən istifadə olunub. Lakin heç bir təqvim ilin fəsilləri, ayları, günlərini xalq təqvimində olduğu kimi dəqiq və düzgün ifadə edə bilməyib. Xüsusən baş verə biləcək təbiət hadisələrinin insanların uzunmüddətli müşahidələri əsasında daha düzgün izah edilməsi xalq təqviminin yaddaşlarda qorunmasına səbəb olub. Sentyabr ayı da bu baxımdan xüsusi əhəmiyyətə malikdir və bu dövrdə də əhalinin təsərrüfatla bağlı qayğıları daha çox olur.

**Zaleh NOVRUZOV**



## *"Gənclər bağı"*nda növbəti iməcilik

Məlum olduğu kimi, Naxçıvan 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı olmaqla yanaşı, eyni zamanda ölkəmizin Gənclər Paytaxtı da seçilib. Bununla əlaqədar Naxçıvanda həm ölkə, həm də beynəlxalq səviyyəli tədbirlər keçirilir. Bu istiqamətdə reallaşdırılan layihələrdən biri də hər bölgədə yeni "Gənclər bağı"nın salınmasıdır. Müntəzəm olaraq həmin ünvanlarda iməciliklər keçirilir, əkilmiş ağaclara qulluq göstərilir.

Ötən şənbə günü də Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun əməkdaşlarının və bir qrup gəncin iştirakı ilə keçirilən növbəti iməcilikdə Naxçıvan şəhəri yaxınlığında salınmış "Gənclər bağı"nda əkilmiş müxtəlif meyvə növlərinə məxsus tinglər suvarılıb, ağaclara aqrotexniki qulluq göstərilib. Ərazi alaq otlarından təmizlənib.

Qeyd edək ki, muxtar respublikanın bütün şəhər və rayonlarında belə iməciliklər keçirilib.

Ekoloji tarazlığın qorunması, bu məqsədlə təbiətin zənginləşdirilməsi, yaşıllıqlara qulluq göstərilməsi muxtar respublikamızın bütün bölgələrində ardıcıl olaraq davam etdirilir. Əsasən, iməciliklər yolu ilə həyata keçirilən bu tədbirlərdə muxtar respublika gəncləri həvəslə iştirak edirlər.

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 12 oktyabr 2018-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (15 faiz) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 4700 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı fərdi yaşayış evi | Kəngərli rayonu, Qarabağlar kəndi | 10 000 | 8 500 | 500 |
| 2. | 760 kvadratmetr torpaq sahəsində yerləşən 2 girişli, 130,8 kvadratmetr ümumi, 130,8 kvadratmetr əsas sahədən ibarət kəsim sexi | Kəngərli rayonu, Qarabağlar kəndi | 9 500 | 8 075 | 475 |
| 3. | 1927 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 73,11 kvadratmetr yaşayış, 47,11 kvadratmetr qeyri-yaşayış, 32,3 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Vənənd kəndi | 18 000 | - | 900 |
| 4. | 1216 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 5 otaqlı, 116 kvadratmetr yaşayış, 19,25 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Qıvraq qəsəbəsi | 28 000 | - | 1 400 |
| 5. | 399 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 7 otaqlı, 148,84 kvadratmetr yaşayış, 85,24 kvadratmetr köməkçi sahədən ibarət 23 nömrəli fərdi yaşayış evi | Naxçıvan şəhəri, B.Abbasov küçəsi | 56 000 | - | 2 800 |
| 6. | 44,42 kvadratmetr ümumi, 28,48 kvadratmetr yaşayış sahəsindən ibarət 2 otaqlı 17 nömrəli mənzil | Naxçıvan şəhəri, Nizami küçəsi 34 nömrəli 5 mərtəbəli bina, 2-ci giriş, 2-ci mərtəbə | 39 000 | - | 1 950 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5% məbləğində beh Naxçıvan Muxtar Respublikası Mərkəzi Bankının İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 8 oktyabr 2018-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- ödəniləcək behin qəbzi;*

*-hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 12 oktyabr 2018-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***

***Əlaqə telefonu: 545-01-38***

## Ağır atletimizdən növbəti çempionluq

Şüvəlan qəsəbəsində yerləşən Ağır Atletika Akademiyasının yarış zalında keçirilən gənclər arasında ağır atletika üzrə Azərbaycan birinciliyinə yekun vurulub. Çempionatın təşkilində məqsəd idmançıların ustalıq səviyyəsinin artırılması və təkmilləşdirilməsi, texniki cəhətdən hazırlıqlı və dərəcə normalarını yerinə yetirən idmançıların seçilməsi, kişilərdən və qadınlardan ibarət milli yığma komandaların tərkibinin müəyyənləşdirilməsi, onların qarşıdakı beynəlxalq yarışlara hazırlanmasıdır.

Yarışda ölkənin bütün regionlarından klub və cəmiyyətləri təmsil edən yüzə yaxın atlet iştirak edib.

Körpücük üzərinə son olaraq 94 kiloqram çəki dərəcəsində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Şərur rayon ağır atletika bölməsinin yetirməsi Tərmenxan Babayev çıxıb. 87 kiloqram çəki dərəcəsində olmasına baxmayaraq, yeni çəkidə yarışa qatılan idmançımız "Qızıl" medal qazanıb. Belə ki, o, birdən qaldırmada 135, təkanla isə 165 kiloqramı başı üzərinə qaldıraraq (toplamda 300 kiloqram) ölkə birinciliyində növbəti çempionluğu əldə edib.

Qeyd edək ki, Tərmenxan Babayev 6-18 oktyabr tarixlərində Argentinanın Buenos-Ayres şəhərində keçiriləcək Yeniyetmələrin III Yay Olimpiadasında iştirak edəcək.

## Sağlamlıq imkanları məhdud oğlanlar və qızlar arasında üzgüçülük yarışı keçirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının birgə təşkilatçılığı ilə 18 yaşadək sağlamlıq imkanları məhdud oğlanlar və qızlar arasında üzgüçülük yarışı keçirilib.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində keçirilən yarışda sağlamlıq imkanları məhdud 14 uşaq iştirak edib.

Yarışın yekun nəticələrinə əsasən oğlanlar arasında Allahverən Səfərov, Fərid Qafarlı və Hüseyn Abdullayev ilk üç pillədə qərarlaşıblar.

Qızlar arasında isə qalib adını Səkinə Rəhimli qazanıb. Mələk Əhmədzadə ikinci, Nurgül Müslümova isə üçüncü yerlərə layiq görülüblər. Sonda qaliblərə fəxri fərmanlar, digər yarış iştirakçılarına isə həvəsləndirici mükafatlar təqdim edilib.

***. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *Bildiriş*

Naxçıvan Dövlət Universitetinin rektorluğu bildirir ki, 2018-2019-cu tədris ilində universitetin qiyabi şöbəsinə qəbul olunmuş I kurs tələbələrinin başlanğıc sessiyası 1 oktyabr 2018-ci il tarixdən başlayır və 15 iş günü davam edir.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 670**